*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 6 may 2017-ci il № 34 (2151) Qiyməti 25 qəpik


# Müdrik rəhbər, qətiyyətli komandan

## Müstəqil Azərbaycanda dövlətçiliyin formalaşması ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır

*Hər bir xalq öz tarixi şəxsiyyətləri, mütəfəkkirləri ilə tanınır. Dahilik səviyyəsinə çatmış şəxsiyyətlər, əslində, mənsub olduqları xalqın milli sərvətidir. Azərbaycan xalqı da iyirminci əsrdə belə dahilərdən birini - müdrik siyasətçi Heydər Əliyevi yetirib.*

Azərbaycanın sovetlər birliyinin tərkibində olduğu vaxtda, 1969-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi təyin edilərkən ona ittifaq rəhbərliyi böyük etimad göstərmişdi. Həmin dövrün də nümunə göstərilən, idarəetmə sistemində örnək olan xüsusiyyətləri vardı. Yəni, partiya rəhbərliyinə hər adam seçilə bilməzdi, məhz liderlik xüsusiyyətləri olan Heydər Əliyev bu etimadı doğrultmağa qadir idi. Azərbaycanın ittifaqın geridə qalmış milli respublikalarından biri olması həmin dövrün yaşıdı olan insanların yaxşı yadındadır. Müdrik siyasətçi Heydər Əliyev qısa bir zamanda bütün sahələrin inkişafına nail oldu. Onun təşəbbüsü və təşkilatçılığı ilə iqtisadi əhəmiyyətinə görə seçilən iri sənaye müəssisələrinin Azərbaycanda yaradılması bir tərəfdən respublika əhalisinin iş yerləri ilə təmin edilməsinə şərait yaradırdısa, digər bir tərəfdən millətimizin imzasını millətlər arasında tanıdırdı. Azərbaycanın istehsal etdiyi sənaye məhsullarının sorağı dünyanın inkişaf etmiş ölkələrindən gəlirdi.

Sovetlər dövründə dahi rəhbəri düşündürən ən vacib məsələlərdən biri də milli hərbi ənənələrin formalaşdırılması idi. Bu məqsədlə respublikanın birinci katibi Bakıda keçmiş ittifaq ordusuna məxsus hərbi təhsil müəssisələrinə baş çəkirdi. Belə tədbirlərin birində o, kursantlar arasında azərbaycanlıların azlıq təşkil etdiyini biləndə məyus olur. Deməli, bu haqda dərindən düşünmək, çıxış yolu tapmaq gərək idi və Heydər Əliyev böyük uzaqgörənliklə ucqar bir respublikada hərbi ənənələrin inkişaf etdirilməsinə və gənc nəslin hərbə marağının, vətənpərvərlik tərbiyəsinin gücləndirilməsinə xüsusi diqqət yetirməyi qarşısına məqsəd qoydu. O vaxtlar Bakıda ibtidai hərbi məktəbin yaradılması təşəbbüsünün irəli sürülməsi müəyyən siyasi problemlər yarada bilərdi. Axı Mərkəzdəkilər bu məsələnin həllinə mane olmağa çalışmışdılar. Məhz Vətənini, millətini düşünən bir lider belə qətiyyət nümayiş etdirə bildi. Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov başda olmaqla, Silahlı Qüvvələrimizin əksər zabit heyəti məhz bu Hərbi liseyin yetirməsidir. Görün, neçə illər öncə ümummilli lider Heydər Əliyev Azərbaycanın nə vaxtsa müstəqil olacağını və dövlətçiliyin ən vacib atributlarından biri kimi ordunun zəruriliyini düşünmüşdü. Əslində, Cəmşid Naxçıvanski adına Hərbi Liseyin açılması böyük gələcəyə hesablanmış ən uğurlu siyasi addım idi.

Danılmaz faktdır ki, müstəqil dövlətin gücü onun ordusu, hərbi qüdrəti ilə sıx bağlıdır. Ordunun formalaşmasında isə bacarıqlı, savadlı zabit kontingenti ən mühüm amillərdəndir və ulu öndər Heydər Əliyev Azərbaycanda müasir hərbi təhsil sisteminin bünövrəsini yaratmaqla Silahlı Qüvvələrimizin kadr bazasını formalaşdırdı. Müdrik komandan daim tövsiyə edirdi ki, zabit peşəsini seçərək taleyini Vətəni qorumağa həsr edən gənclər nəcib mənəvi keyfiyyətlərə malik olmalıdırlar. Buna görə də o, Azərbaycanda lider səviyyəsinə yüksəldi və haqlı olaraq xalqımız onu Ümummilli Lider kimi daim böyük ehtiramla xatırlayır. Onu Azərbaycanın lideri səviyyəsinə yüksəldən ən başlıca amil, əlbəttə, qəlbindəki tükənməz Vətən sevgisi, doğma xalqına, millətinə dərin məhəbbəti idi.

1993-cü ildə Ümummilli Liderin yenidən ölkəmizdə siyasi hakimiyyətə qayıdışı, əslində, çox təzadlı bir dövrə təsadüf etmişdi və yaxşı bilirdi ki, bu yolda onu fiziki məhvinə kimi nə qədər çətinliklər, təhlükələr gözləyir. Amma elə bir insan heç vaxt öz xalqını, millətini darda qoya bilməzdi. Siyasi hakimiyyətə yenidən qayıtmaqla, özünün də qeyd etdiyi kimi, ömrünün qalan hissəsini də xalqına, Vətəninə həsr etdi və müstəqil dövlətçiliyimizi gerçək təhlükələrdən qısa bir vaxtda xilas edə bildi. Dövləti idarə etmək müdriklik, yetərincə siyasi təfəkkür və böyük təşkilatçılıq tələb edən peşədir. Məhz Heydər Əliyevdə belə xarakterik xüsusiyyətlər cəmləşmişdi. Azərbaycan, doğrudan da, ikinci dəfə müstəqil dövlətçiliyini bərpa edəndə olduqca ağır və mürəkkəb tarixi şəraitlə üzləşmişdi. Bir tərəfdən müstəqilliyimizi istəməyən xarici və daxili separatçı qüvvələrin təxribatları, digər tərəfdən güclü himayədarına arxalanan işğalçı Ermənistanın sərhəd bölgələrimizə silahlı müdaxiləsi Vətənimizi ağır duruma salmışdı. Xalqın qanı bahasına qazanılan müstəqillik qısa vaxtda itirilə bilərdi və Azərbaycan vətəndaş müharibəsinə düçar olardı. Məhz belə çətin bir dövrdə dahi siyasətçi yenidən dövlət rəhbərliyinə qayıtdı və ölkəmizi ciddi təhlükələrdən xilas etdi.



Azərbaycanı siyasi və iqtisadi böhrandan çıxarmağı bacaran Ümummilli Lider tərəfindən müasir ordu quruculuğu strategiyası da işlənib hazırlandı və mərkəzi komandanlıqdan idarə edilən, yüksək döyüş hazırlığına malik Silahlı Qüvvələrimiz yaradılmaqla müstəqil dövlətin suverenliyini və torpaqlarımızı işğaldan qorumağa qadir müdafiə potensialı formalaşdırıldı. Bu ənənə 2003-cü ildən etibarən Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən inamla davam etdirilir.

Ordu quruculuğunu inkişaf etdirməyi siyasi kursunun başlıca istiqaməti elan edən dövlət başçısı Silahlı Qüvvələrimizin müasir dünya orduları səviyyəsində qurulması üçün ən vacib tədbirlərə əl atır. Ordu hissələri müasir silah və texnikalarla təmin edilir, hərbi qulluqçuların sosial-məişət qayğılarının həll edilməsi istiqamətində ardıcıl işlər görülür. Ali Baş Komandanımız çıxışlarının birində qeyd edib ki, bu gün Azərbaycanda nizami ordu vardır, bu gün Azərbaycan Ordusu ən yüksək səviyyədədir. "Ordumuzda peşəkarlıq, döyüş qabiliyyəti artır, Silahlı Qüvvələrdə ruh yüksəkliyi vardır. Bütün bu məsələlər bizi çox sevindirir. Azərbaycanda ordu quruculuğu prosesi bundan sonra da uğurla gedəcəkdir..."

Ötən il aprelin 2-dən 5-dək düşmənin cəbhə xəttindəki təxribatlarının qarşısının alınmasında iştirak edən Azərbaycan Ordusunun döyüş bölmələri, doğrudan da, qısa vaxtda qəhrəmanlıq nümunələri göstərdi. Vətənpərvər hərbçilərimiz son nəfəsədək mübarizə aparmaq əzmini nümayiş etdirməklə Silahlı Qüvvələrin şəxsi heyətinin döyüş ruhunu cəmiyyətimizə və beynəlxalq aləmə sübut etdilər. İşğalçı Ermənistanın siyasi və hərbi rəsmiləri bir daha anladılar ki, artıq Azərbaycan Ordusu ərazi bütövlüyümüzü təmin etməyə tam qadirdir.

Aprel döyüşlərində qələbəmizi təmin edən əsas amil məhz ümummilli liderimiz Heydər Əliyev tərəfindən işlənib hazırlanmış ordu quruculuğu strategiyasının müasir dövrdə Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurlu davamıdır. Buna görə də Ulu Öndərin zəngin və çoxşaxəli irsi Azərbaycan Silahlı Qüvvələri tərəfindən dərindən öyrənilir. Onun mənalı ömür yolu hər kəsə nümunədir.

**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan-Türkiyə birgə taktiki təlimləri sona çatıb

*Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, mayın 1-də başlanmış təlimlərə cəlb edilən bölmələr növbəti mərhələdə qarşılıqlı uzlaşma şəraitində müxtəlif döyüş elementlərini yerinə yetiriblər. Hər iki ölkə bölmələrinin iştirakı ilə döyüş atışları keçirilib, zirehli texnika, helikopterlər və artilleriya qurğularından açılan sərrast atəşlərlə hədəflər məhv edilib.*





Bir faktı qeyd etməyə dəyər ki, ordu quruculuğu bu gün Azərbaycan rəhbərliyinin ən çox önəm verdiyi strateji əhəmiyyətli məsələlərdəndir.

Ordumuzun daha da gücləndirilməsi və döyüş potensialını artırması üçün silah istehsalçısı olan aparıcı ölkələrdən müasir standartlara uyğun silah və texnika alınır və qoşunlarımızın sərəncamına verilir. Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında imzalanmış hərbi-texniki əməkdaşlıq müqaviləsinə əsasən, bu günlərdə Rusiyadan ölkəmizə silah-sursat və müxtəlif təyinatlı müasir hərbi texnikanın növbəti partiyası gətirilib. Həmin silah-sursat və hərbi texnikanın ən qısa zamanda Silahlı Qüvvələrimizin bölmələrinin silahlanmasına daxil edilməsi və döyüş tətbiqinə tam hazır vəziyyətə gətirilməsi nəzərdə tutulub.

Birgə təlimlərin növbəti mərhələsində yeni silah və müxtəlif təyinatlı hərbi texnikanın yoxlanılması məqsədilə keçirilən atışlar uğurla başa çatıb.

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığı ilə mayın 2-də birgə təlimləri işıqlandırmaq məqsədilə kütləvi informasiya vasitələrinin nümayəndələri üçün taktiki təlim mərkəzinə səfər təşkil edilib.

Təlimlərə cəlb edilən şəxsi heyət və hərbi texnika ilə tanış olan jurnalistlər yerinə yetirilən tapşırıqların icrasını canlı olaraq müşahidə məntəqəsindən izləyiblər.

Azərbaycan, Türkiyə və Gürcüstanın Müdafiə nazirlərinin üçtərəfli formatda keçirilən əvvəlki görüşlərində əldə edilmiş razılığa əsasən, Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin birgə təlimlərinin növbəti mərhələsi hər üç ölkənin yüksək səviyyəli müşahidəçilərinin iştirakı ilə keçirilib.

Qeyd etmək lazımdır ki, müxtəlif illərdə qardaş Türkiyə ordusunun hərbi bölmələri ilə Azərbaycan Silahlı Qüvvələrinin birgə keçirdiyi təlimlər hər iki ölkədə böyük rəğbətlə qarşılanır. Belə təlimlər qarşılıqlı hərbi əməkdaşlıq baxımından olduqca dəyərlidir və ordular şəxsi heyəti arasında səmimi qardaşlıq münasibətləri formalaşdırır.

Mayın 4-də "Yüksək Səviyyəli Müşahidəçi Günü" çərçivəsində Müdafiə naziri general-polkovnik Zakir Həsənov, Türkiyə Silahlı Qüvvələrinin hərbi birliyinin komandiri general-leytenant Mehmet Özoğlunun və Gürcüstan Müdafiə Nazirliyinin briqada komandiri polkovnik Zurab Xviçianın rəhbərliyi ilə nümayəndə heyətləri təlimlərin növbəti mərhələsini izləyiblər.

Keçirilən təlimlər haqqında ərazinin maketi üzərində ətraflı məruzə edildikdən sonra yüksək səviyyəli qonaqlar təlimlərə cəlb edilən şəxsi heyət və hərbi texnika ilə tanış olub, yerinə yetirilən tapşırıqların praktiki icrasını müşahidə ediblər.



Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin təlimdə iştirak edən bölmələri qarşıya qoyulan tapşırıqları uğurla yerinə yetiriblər.

Təlimin nəticələri iki tərəfdən yüksək qiymətləndirilib və bu cür təlimlərin vaxtaşırı keçirilməsi qərara alınıb.

Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında hərbi əməkdaşlıq haqqında sazişə əsasən, iki ölkənin Silahlı Qüvvələrinin birgə döyüş atışlı taktiki təlimləri mayın 5-də sona çatıb.

Birgə təlimlərdə 1000 nəfərədək şəxsi heyət, 80-dək hərbi texnika, 60-dan çox artilleriya qurğuları və minaatanlar, Hərbi Hava Qüvvələrinin 12 ədəd döyüş (Mi-35) və nəqliyyat (Mi-17) helikopterləri, həmçinin hava hücumundan müdafiə və zenit-raket bölmələri iştirak edib.

Sonda qonaqlar şəxsi heyətlə görüşüb, fərqlənən hərbi qulluqçuları mükafatlandırıb və xatirə şəkli çəkdiriblər.

**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyinin BƏYANATI

Görülmüş tədbirlər nəticəsində Ermənistan Silahlı Qüvvələrinin kəşfiyyat və xüsusi xidmət orqanlarının Tərtər rayonu istiqamətində yerləşən bölmələrimizə və yaşayış məntəqələrimizə qarşı genişmiqyaslı təxribat fəaliyyətinin həyata keçirilməsini planlaşdırdıqları barədə dəqiq məlumat əldə edilib.

Görülən effektiv və önləyici tədbirlər nəticəsində düşmənin bu planı vaxtında aşkar olunub.

Müdafiə Nazirliyi bildirir ki, bütün cəbhə boyu əməliyyat şəraiti və ümumilikdə vəziyyət daim nəzarətimiz altındadır. Eyni zamanda xəbərdar edirik ki, düşmənin gələcəkdə də bu cür fəaliyyətinin qarşısı daha sərt şəkildə alınacaqdır. Görüləcək cavab tədbirləri amansız olacaq və qarşı tərəfin verəcəyi böyük itkilərə görə bütün məsuliyyət Ermənistanın cinayətkar hərbi-siyasi rejiminin üzərinə düşəcəkdir.

# "Təlimlər qardaşlıq, dostluq şəraitində keçdi"

*Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin birgə taktiki təlimləri, nəhayət, yekunlaşdı. Hər iki qardaş ölkədən manevrlərə cəlb edilmiş bölmələr bir neçə gün ərzində qarşıya qoyulmuş təlim tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirdilər. Polkovnik Münasib Babayevlə görüşüb təlimlə bağlı təəssüratlarını bölüşməsini xahiş etdik.*




**- Cənab polkovnik, Azərbaycan və Türkiyə Silahlı Qüvvələri bölmələrinin iştirakı ilə birgə taktiki təlimlər artıq başa çatıb. Təlimlərin gedişi barədə nə deyərdiniz?**

- Azərbaycan və qardaş Türkiyə hərbçilərinin birgə taktiki təlimləri plana uyğun olaraq keçirildi. Doğrudan da, Azərbaycan ilə Türkiyə qardaş ölkələrdir, ümummilli lider Heydər Əliyev demişkən, biz bir millət, iki dövlətik. Təlimlər də qardaşlıq, dostluq şəraitində keçdi. Qardaş ölkələrin hərbi qulluqçuları bir-birinə dəstək verməklə təlim tapşırıqlarını icra etdilər.

Konkret təlimlərin gedişinə gəldikdə, onu qeyd edə bilərəm ki, poliqonda hər şey yüksək səviyyədə baş tutdu.

Təlimdə döyüş zamanı ortaya çıxan vəziyyətlərlə bağlı tapşırıqların yerinə yetirilməsi bir vəzifə olaraq qarşıya qoyulmuşdu və hər iki ölkənin taktiki qrupları tərəfindən uğurla icra olundu. Bölmələr şərti düşməni darmadağın edərək əlverişli hədəfləri ələ keçirməyi bacardılar.

Bundan əlavə qeyd etmək istəyirəm ki, Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin birgə taktiki təlimlərinə kütləvi informasiya vasitələrinin nümayəndələri dəvət edilmişdi və onlar poliqonda baş verənləri, həmçinin silah və döyüş texnikalarından atışları yaxından müşahidə etdilər, öz informasiya vasitələrində işıqlandırmaq üçün çəkilişlər apardılar.

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov birgə taktiki təlimləri izləmək üçün təlim meydanına gəlmişdi. Nazirimiz təlimin gedişini yaxından izlədi, çox razı qaldı və poliqonda bölmələrin fəaliyyətini yüksək qiymətləndirdi. Eyni zamanda təlim zamanı fərqlənən hərbi qulluqçuları qiymətli hədiyyələrlə mükafatlandırdı.

**- Hər iki ölkə arasında imzalanmış hərbi əməkdaşlıq haqqında sazişə əsasən, belə tədbirlərin keçirilməsi artıq ənənə halını alıb. Bu barədə nə deyə bilərsiniz?**

- Doğrudan da, bu, iki ölkənin Silahlı Qüvvələri arasında keçirilən ilk təlim deyil. Son illərdə belə tədbirlər planlaşdırılaraq mütəmadi təşkil edilir. Bu, hər iki ölkənin Silahlı Qüvvələri arasında əməkdaşlığın dərinləşməsinə xidmət edir, döyüş hazırlığı sahəsində təcrübə mübadiləsi baxımından olduqca əhəmiyyətlidir.

**- Silahlı Qüvvələrimizin bölmələri birgə taktiki təlimlərdə özlərini necə göstərə bildilər?**

- Təlimdə, əslində, aparılan hazırlıq işlərinin nəticəsi üzə çıxır. Bölmələrin şəxsi heyətinin bilik və vərdişləri nümayiş etdirilir. Amma həmin təcrübə həftələrin, ayların, illərin gərgin zəhmətilə qazanılır. Xoşdur ki, Azərbaycan və qardaş Türkiyə hərbçilərinin birgə taktiki təlimlərini yaxından müşahidə edən Müdafiə naziri general-polkovnik Zakir Həsənov bölmələrimizin taktiki və atəş hazırlığından razı qaldı. Ona görə hesab edirəm ki, qoşun bölmələrimiz bu təlimlərdə verilən istənilən döyüş tapşırıqlarını yerinə yetirməyə qadir olduqlarını göstərdilər.

**Əbülfət QASIMOV, "Azərbaycan Ordusu"**

# Silahlı Qüvvələrdə vətənpərvərlik tədbirləri həftəsinə start verilib

*Mayın 4-də Şəmkir şəhərindəki hərbi hissədə "Heydər Əliyev ideyalarına sadiqik" devizi altında Silahlı Qüvvələrdə vətənpərvərlik tədbirləri həftəsinə start verilib.*

*AZƏRTAC xəbər verir ki, əsgər və zabitlərin, ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbirdə əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül-çiçək dəstələri düzülüb, Azərbaycanın Dövlət himni səsləndirilib.*






Müdafiə Nazirliyinin əməkdaşı polkovnik Abdulla Qurbani çıxış edərək bildirib ki, mayın 4-dən 11-dək Silahlı Qüvvələrdə "Heydər Əliyev ideyalarına sadiqik" devizi altında vətənpərvərlik tədbirləri həftəsinə start verilir. Vətənpərvərlik həftəsi regionlarda silsilə tədbirlərlə davam edəcək.

Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev qeyd edib ki, şəmkirlilər həmişə orduya və ordu quruculuğuna dəstək olublar. Ümummilli lider Heydər Əliyevin ordu quruculuğundakı xidmətlərindən danışan natiq bildirib ki, bu siyasətin təməli hələ Sovet dövründə, Ulu Öndər tərəfindən C.Naxçıvanski adına Hərbi Lisey yaradılanda qoyulub. Bu gün Ulu Öndərin ordu quruculuğu siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Tədbirdə çıxış edən rayon İcra Hakimiyyətinin başçısı Alimpaşa Məmmədov bildirib ki, ölkəmiz daha bir beynəlxalq yarışa - IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etməyə hazırlaşır. Bu yarışların ölkəmizdə keçirilməsi, eləcə də bundan əvvəlki mötəbər idman turnirlərinə uğurla ev sahibliyi etməsi Azərbaycanın dünyada artan müsbət imicindən xəbər verir. Bütün bunlar məhz ulu öndər Heydər Əliyev siyasətinin uğurla davam etdirilməsinin nəticəsidir.

General-mayor Xəqani Cəbrayılov çıxışında ümummilli lider Heydər Əliyevin ordu quruculuğu istiqamətində həyata keçirdiyi tədbirlərdən danışıb, müstəqil Azərbaycan Ordusunun bugünkü qüdrətindən söz açıb.

Sonra YAP Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyev, rayon İcra Hakimiyyəti başçısının Düyərli kənd inzibati ərazi vahidliyi üzrə nümayəndəsi Aybəniz Nəsibova və hərbi birliyin zabiti mayor Bəxtiyar Məmmədov çıxış ediblər.

Çıxışlardan sonra "Heydər Əliyev ideyalarına sadiqik" vətənpərvərlik tədbirləri həftəsinə start verilib.

Vətənpərvərlik tədbirləri həftəsi çərçivəsində həmin gün Şəmkir Heydər Əliyev Mərkəzində "Heydər Əliyev - müstəqil Azərbaycanın memarı" mövzusunda "dəyirmi masa" təşkil olunub.

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

*5 may 2017-ci il.*

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 117 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Paravakar, Vazaşen, Noyemberyan rayonunun Şavarşavan kəndlərində yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Bala Cəfərli və Quşçu Ayrım kəndlərində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam və Koxanəbi kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Qaraqaşlı, Mərzili, Yusifcanlı, Baş Qərvənd, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz və Aşağı Veysəlli kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Tərtər, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# Milli Qəhrəman Çingiz Qurbanovun xatirəsi Tovuzda silsilə tədbirlərlə anılıb



*Azərbaycanın Milli Qəhrəmanı şəhid Çingiz Qurbanovun xatirəsi xidmət etdiyi Tovuz rayonunda silsilə tədbirlərlə anılıb.*

AZƏRTAC xəbər verir ki, Müdafiə Nazirliyinin rəsmiləri, rayon rəhbərliyi, qəhrəmanın xidmət etdiyi hərbi hissənin və ictimaiyyətin nümayəndələri əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyublar. Sonra Şəhidlər xiyabanı ziyarət edilib, Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyi uğrunda şəhidlik zirvəsinə ucalan qəhrəman tovuzluların xatirəsi yad olunub.

Milli Qəhrəman Çingiz Qurbanovun xidmət etdiyi hərbi hissənin qərargahı qarşısında "Şəhid Milli Qəhrəmanlarımız" xatirə abidəsinin açılışı olub. Abidə üzərində Çingizlə yanaşı, 22 yaşında şəhidlik zirvəsinə ucalmış hərbi hissənin yetirmələri olan Milli qəhrəmanlar Qasım Rzayev və Naiq Yusifovun da portretləri əksini tapıb.

Açılış mərasimində Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbani çıxış edərək qəhrəmanların həyat və döyüş yolları haqqında ətraflı məlumat verib.

Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev ordumuzun yaranmasında və formalaşmasında ulu öndər Heydər Əliyevin müstəsna xidmətlərindən danışıb. O, Prezident İlham Əliyevin ordu quruculuğu məsələlərinə daim önəm verdiyini vurğulayıb, ötən ilin aprel döyüşlərində Azərbaycan əsgərinin qazandığı qələbədən söz açıb. Çingiz Qurbanovun qəhrəmanlığından bəhs edən general-mayor Rasim Əliyev hər bir Azərbaycan əsgərinin Ali Baş Komandanın əmrinə müntəzir olduğunu vurğulayıb.

Tovuz rayon İcra Hakimiyyətinin başçısı Tofiq Zeynalov bütün xalqımız kimi, tovuzluların da Vətən uğrunda şəhid olan qəhrəmanlarımızın adlarını həmişə əziz tutduqlarını, onların xatirələrinin əbədiləşdirildiyini, şəhid ailələrinin daim diqqət və qayğı ilə əhatə olunduğunu bildirib. O, şəhid atası Salman Qurbanovu əmin edib ki, onun qəhrəman övladı Çingiz Qurbanovun xatirəsi də tovuzluların yaddaşından heç vaxt silinməyəcək.

Tofiq Zeynalov rayonun Ağbulaq kəndində mərkəzi küçəyə Azərbaycanın Milli Qəhrəmanı şəhid Çingiz Qurbanovun adının verildiyini qeyd edib.

Bu münasibətlə kənddə keçirilən tədbirdə sakinlər Çingiz Qurbanovun qəhrəmanlığı ilə fəxr etdiklərini və onun xatirəsini həmişə uca tutduqlarını deyiblər.

Tədbir iştirakçıları Çingiz Qurbanovun xidmət etdiyi döyüş mövqeyində olub, Müdafiə nazirinin müvafiq əmrinə uyğun olaraq, şəhid Milli Qəhrəmanın xidmət etdiyi posta Çingiz Qurbanovun adının verilməsi və qəhrəmanın adının bölüyün şəxsi heyətinin əbədi siyahısına daxil edilməsi barədə əmr şəxsi heyətə çatdırılıb. Döyüş postuna xatirə lövhəsi vurulub. Çingiz Qurbanovun Ermənistan silahlı qüvvələrinin kəşfiyyat qrupunun təxribat-diversiya fəaliyyətinin qarşısını alarkən göstərdiyi igidlikdən bəhs edən xatirə guşəsi qonaqlarda böyük maraq oyadıb.

Sonra Milli Qəhrəman Çingiz Qurbanovun xidmət etdiyi taborda anım mərasimi keçirilib.

Anım mərasimindən sonra qonaqlar əsgərlərlə birlikdə nahar ediblər. Tovuz rayon incəsənət ustaları vətənpərvərlik mahnıları ilə tədbir iştirakçılarını salamlayıblar.

Şəhid Milli Qəhrəmanın atasına xatirə hədiyyələri təqdim edilib.

Çingiz Qurbanovun atası Salman Qurbanov ailələrinə göstərilən diqqət və qayğıya görə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevə, Müdafiə Nazirliyinin və Tovuz rayon İcra Hakimiyyətinin rəhbərliyinə, eləcə də tədbirlərin təşkilatçılarına ailəsi adından minnətdarlığını bildirib.

# "Bizim gücümüz bizim birliyimizdədir"

*Azərbaycanla Türkiyə arasında hərbi əməkdaşlıq haqqında sazişə əsasən, iki ölkənin Silahlı Qüvvələri arasında təcrübə mübadiləsini həyata keçirmək, koordinasiyanı inkişaf etdirmək, qərargahların müştərək planlaşdırmaları, bölmələrin hazırlığı və əməliyyatları icra etmə qabiliyyətini yüksəltmək və hər iki ölkənin hərbi bölmələrinin qarşılıqlı fəaliyyətinə nail olmaq üçün mayın 1-dən 5-dək keçirilən döyüş atışlı taktiki təlimlərə yekun vuruldu. Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin təlimdə iştirak edən bölmələri qarşıya qoyulan tapşırıqları uğurla yerinə yetirdi.*



Birgə təlimlərin növbəti mərhələsi müvəffəqiyyətlə başa çatdıqdan sonra hər iki ölkənin təlimdə iştirak edən bölmələrinin şəxsi heyətinin şərəfinə "N" hərbi hissəsində konsert proqramı təşkil edildi.

Tədbiri açıq elan edən Azərbaycan nümayəndə heyətinin rəhbəri polkovnik Münasib Babayev bildirdi ki, Azərbaycan və Türkiyə artıq beynəlxalq münasibətlər sistemində ən sadiq tərəfdaşlar kimi tanınır. "İki ölkə arasında bütün sahələrdə güclü əlaqələr var, hərbi sahədə əməkdaşlıq da gündən-günə inkişaf edir".

Müxtəlif şərti döyüş tapşırıqlarını uğurla icra edən hərbçilər təlimlərdə sübut etdilər ki, bu gün Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin şəxsi heyəti yüksək peşəkarlığa malikdir. Təlimi Müdafiə naziri general-polkovnik Zakir Həsənov yüksək qiymətləndirdi. İnanırıq ki, Azərbaycan Silahlı Qüvvələrinin də şəxsi heyəti təsdiq edilmiş plana uyğun olaraq bir müddətdən sonra Türkiyədə keçiriləcək təlimlərdə yüksək nəticələr əldə edərək Vətənimizə uğurlarıyla dönəcək. Bu təlim Azərbaycan-Türkiyə dostluğunun və qardaşlığının əbədi olduğunun sübutudur. Keçirilən təlim bir daha Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin "Bizim gücümüz bizim birliyimizdədir. Türkiyənin gücü Azərbaycanın gücü, Azərbaycanın gücü Türkiyənin gücüdür" fikrinin təsdiqidir.

Tədbir Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin təqdim etdiyi rəngarəng konsert proqramı ilə başa çatdı.

Tədbirdən sonra hərbi hissənin əsgər yeməkxanasında qonaqlar üçün bayram süfrəsi açıldı. Azərbaycan nümayəndə heyətinin rəhbəri polkovnik Münasib Babayev və Türkiyə nümayəndə heyətinin rəhbəri polkovnik Hakan Açıkgöz hər iki ölkənin atributlarını və "Bir millət, iki dövlət" şüarını özündə əks etdirən qardaşlıq tortunu kəsdilər.

Sonda hər iki ölkənin hərbi qulluqçuları birlikdə xatirə şəkli çəkdirdilər.

**Kapitan Məhəmməd ƏLİYEV, "Azərbaycan Ordusu", fotolar çavuş Namiq PƏNAHOVUNDUR**





## Müdafiə Sənayesi Nazirliyinin məhsulları Türkiyədə "IDEF-2017" sərgisində nümayiş etdiriləcək

Müdafiə Sənayesi Nazirliyinin (MSN) müəssisələrində yaradılan və istehsal olunan müdafiə təyinatlı məmulatlar mayın 9-dan 12-dək İstanbulda keçiriləcək "IDEF-2017" XIII Beynəlxalq müdafiə sənayesi sərgisində nümayiş etdiriləcək. Bununla bağlı müdafiə sənayesi naziri Yavər Camalovun başçılıq etdiyi geniş tərkibli nümayəndə heyəti Türkiyədə səfərdə olacaq.

MSN-dən AZƏRTAC-a bildiriblər ki, dörd gün davam edəcək sərgidə nazirliyin müəssisələrində yaradılan və istehsal olunan 260 adda müdafiə təyinatlı məmulat nümayiş etdiriləcək.

Sərgidə dünyanın 50 ölkəsindən 300-dək şirkətin iştirakı gözlənilir.

Səfər çərçivəsində Yavər Camalovun Türkiyənin dövlət və hökumət nümayəndələri, sərgiyə qatılan bir sıra ölkələrin nümayəndə heyətlərinin rəhbərləri ilə görüşləri də nəzərdə tutulur.

# Unudulmayacaq mükafat

## Müdafiə naziri birgə təlimlərdə fərqlənmiş zabiti qiymətli hədiyyə ilə mükafatlandırdı

*Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin birgə taktiki təlimlərində bölmələrimiz qazandıqları bilik və döyüş vərdişlərini poliqonda nümayiş etdirməyi bacardılar. Təlimləri yaxından izləyən Müdafiə naziri general-polkovnik Zakir Həsənov döyüşçülərimizin hazırlığından razı qaldı, təlim meydanında fərqlənmiş hərbi qulluqçuları qiymətli hədiyyələrlə mükafatlandırdı. Belə hərbçilərdən biri də kapitan Bəhruz Məmmədovdur.*



Kapitan Məmmədov əslən İsmayıllı rayonunun Lahıc qəsəbəsindəndir. O, ümummilli lider Heydər Əliyevin adını daşıyan Azərbaycan Ali Hərbi Məktəbini motoatıcı ixtisası üzrə bitirib. 2009-cu ildən müxtəlif hərbi hissələrdə xidmət edib.

- İndiyədək dəfələrlə müxtəlif mükafatlara, - təşəkkür və fəxri fərmanlara layiq görülmüşəm, - deyir kapitan. - "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Silahlı Qüvvələrin 95 illiyi" medalları ilə təltif edilmişəm. Bu mükafatların hər biri xidmətimə verilən qiymətdir və mənim üçün əlamətdardır. Bu dəfə birgə taktiki təlimlərdə bölməmizin fərqləndiyinə görə mənə nazirimiz tərəfindən üzərində "Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovdan" sözləri yazılmış qol saatı verildi. Həmin gün həyatımda unudulmaz bir gün oldu.

Təlim zamanı şərti düşmənin dayaq məntəqəsini ələ keçirmək barədə kapitan Bəhruz Məmmədovun bölməsinə tapşırıq verilmişdi. Zirehli döyüş texnikasının köməyilə gücləndirilmiş qruplarla irəli atılan zabit taktiki ustalıq nümayiş etdirərək verilən təlim tapşırığını uğurla yerinə yetirməyi bacardı. Bu, təlim rəhbərliyinin də diqqətindən yayınmayıb. Ona görə mükafatlandırılmaq üçün təqdim edilən hərbi qulluqçular siyahısına kapitan Bəhruz Məmmədovun adı da əlavə edilmişdi.

- Kapitan Məmmədov bölməmizin savadlı, bacarıqlı və tələbkar zabitlərindən biridir, - bizimlə söhbətində zabit Babək Ramaldanov razılıq hissilə qeyd etdi. - Həmişə onun komandiri olduğu bölmə intizamı, döyüş hazırlığı sahəsində qazandığı uğurlarla fərqlənir. Bu bölmənin şəxsi heyəti Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin birgə taktiki təlimlərində də fərqlənməyi bacardı. Təcrübəli bölük komandirinə və tabeliyindəki şəxsi heyətə bundan sonra da uğurlar arzulayıram.

Birgə təlimlərdən sonra zabit Məmmədovun və onun tabeliyində olan şəxsi heyətin yüksək əhval-ruhiyyədə olduğunu gördük. Doğrudan da, zəhmətə verilən yüksək qiymət hər kəsdə ancaq xoş duyğular oyadır.

- Cənab nazirimizin mənə bağışladığı saat heç zaman unutmayacağım bir hədiyyədir və daha həvəslə doğma Vətənimizə xidmət etməyə məni ruhlandırır. Bundan sonra da Azərbaycana şərəf və məsuliyyət hissi ilə xidmət edəcəyəm!

**Əbülfət QASIMOV, "Azərbaycan Ordusu"**

**Ümummilli lider Heydər Əliyev:**

*Əziz gənclər!*

*Siz Azərbaycanın bu günü və gələcəyisiniz. Sizin üzərinizə böyük vəzifələr düşür. Bu vəzifələr gələcəkdə daha da böyük olacaqdır. Biz müstəqil Azərbaycanın taleyini gələcəkdə sizə etibar edəcəyik, sizə tapşıracağıq. Ona görə də Azərbaycanı, Azərbaycan dövlətini yaşatmaq, inkişaf etdirmək üçün hazır olun!*

*Vətənpərvərlik*

# "Azərbaycan Ordusunun qələbəsi qəlbimizi coşdurdu"



*Vətənpərvərlik böyük məfhumdur, yəni torpağını, dövlətini, xalqını ülvi hisslərlə sevib təəssübünü çəkmək əsl qəhrəmanlıq doğuran amillərdir. Və bu hisslər hamıda lap erkən yaşlardan formalaşır. Bir də görürsən ki, balaca bir vətəndaşımız, 4-5 yaşında oğlan-qız Dövlət himnimiz səslənəndə ayağa qalxıb əllərini ürəyi üstdə saxlayır. Mətni dəqiq bildi-bilmədi, oxumağa çalışır. Deməli, belələri ailə, bağça mühitində kifayət qədər vətənpərvərlik ruhunda yetişir, böyüklərdən öyrəndiklərini yaddaşlarına həkk edirlər. Vətənpərvər olmaq üçün ruhunla, canınla, bütün varlığınla üzərində boy atdığın torpağa, yurda bağlanmalısan. Şübhəsiz, böyüməkdə olan nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsi üçün təhsil qurumlarının, orta məktəb kollektivlərinin də üzərinə məsuliyyət düşür.*

Ötən saylarımızdan birində olduğu kimi, bu dəfə də "Vətənpərvərlik" rubrikasında hazırladığım yazımı cəbhə bölgəsində, düşmənlə təmas xəttinə yaxın ərazidə yerləşən orta ümumtəhsil məktəblərindən birinə həsr etmişəm. Ümumiyyətlə, maraqlıdır ki, cəbhə bölgəsində şagirdlərimiz hansı əhval-ruhiyyədə olur, onları daha çox hansı suallar düşündürür, narahat edir və s. Bu məqsədlə Goranboy rayonundakı Azərbaycanın Milli Qəhrəmanı Sərxan Ocaqverdiyev adına Tatarlı kənd orta məktəbinə yolumuzu saldıq. Adi bir kənd məktəbi olmasına baxmayaraq, həyət-bacasından tutmuş, dəhlizinə, sinif otaqlarına kimi hər tərəf səliqə-sahmanı, əyani vəsaitləri ilə diqqət çəkir. Giriş qapısından daxil olan kimi "Şəhidlər" xatirə kompleksi ilə üz-üzə qalırsan. Burada tək Milli Qəhrəmanın deyil, məktəbin məzunları olan digər şəhidlərin də şəkilləri həkk edilib.



Məktəbin direktoru Fuad Zamanovla həmsöhbət olanda öncə hansı hərbi hissədə xidmət etməsi ilə maraqlanıram. Buna səbəb isə direktorun cavan yaşda olmasıdır. Öyrənirəm ki, Gəncə Dövlət Universitetini bitirdikdən sonra o da ali təhsilli vətəndaşlarımız kimi hərbi xidmətə yola düşüb və motoatıcı hərbi hissənin əsgəri olub. Hətta nümunəvi əsgər olduğuna görə ona kiçik çavuş rütbəsi də təqdim olunub. Direktorun hərbi xidmətlə bağlı düşüncələrini dinləmək də ürəyimdən oldu. "Hərbi xidmət həqiqətən həyat məktəbidir, gəncləri qəhrəmanlığa ruhlandıran bir sınaq meydanıdır. Bəzilərinə elə gəlir ki, ordu sərt qayda-qanunları, özünəxas çətinlikləri olan bir qurumdur. Əslində bütün bunlar gənclərə dözümlülük, cəsarət, mərdlik aşılayır. Ən başlıcası, bu şərait bizə Vətəni, torpaqlarımızı qorumağı öyrədir. Məhz bu cəhətdən orduda keçən günlərin dəyəri böyükdür."

Sonra Fuad müəllimlə birlikdə dəhlizdəki əyani vəsaitlərə baxırıq. "Vətən oğlu, ayaq saxla, unutma ki, bu sənin qan yaddaşındır" sözləri başlığında həkk edilmiş lövhəni həyəcansız nəzərdən keçirmək olmur. Çünki bu lövhədə erməni millətçilərinin ötən ilin sonlarında Xocalıda törətdikləri vəhşiliklər əksini tapıb. Başqa bir lövhədə isə Azərbaycan Ordusunun son illərdəki uğurlarını, təlimləri, dövlət başçısının və ordu rəhbərliyinin cəbhə xəttində görüşlərini əks etdirən şəkillər yer alıb. Əlbəttə, hər iki guşənin qarşısında dayanan məktəbli istər-istəməz özünə hesabat verir ki, bu xalqın övladı olaraq mən də məsuliyyət daşıyıram. Və yaxşı oxumağı, vətənpərvərlik ruhunda böyüməsi onu addım-addım məsuliyyətli vəzifəyə - vətəndaşlıq borcunu yerinə yetirməyə yaxınlaşdırır. Şübhə yoxdur ki, dərslərində, təlim-tərbiyədə yaxşı göstəricilərə malik olan yeniyetmə sabah cəmiyyətimizin fəal vətəndaşı olacaq.

Müəllim və şagirdlərlə görüşümüz də yaddaqalan olur. Hər kəs öz sözünü deyir, Qarabağ müharibəsindən, aprel döyüşlərindən, qəhrəmanlarımızdan, şəhidlərimizdən danışırıq. Məlum olur ki, bu təhsil ocağının onlarla məzunu torpaqlarımızın işğalçılardan qorunması uğrunda mübarizədə şəhid olub. 30-dan artıq məzun hazırda Silahlı Qüvvələrimizin müxtəlif qoşun növlərində xidmət edir. Məktəblilər "Vətənin müdafiəsinə hazıram!" devizi ilə keçirilən kütləvi hərbi-idman yarışlarında 4 il dalbadal zona birinciliyində qalib olublar. 2014-cü ildə isə respublika birinciliyində ikinci yeri tutublar.

Aprel döyüşlərində atılan güllələrin səsi burada lap aydın eşidilib. Məktəb direktorunun söhbətinə görə, bu kənd cəbhə xəttinə yaxındır, artilleriya silahlarından açılan vahiməli atəşlər yeri-göyü silkələyib. "Atəş səsləri eşidiləndə şagirdlərimiz də məğrur görünürdü, hər kəs ordumuza dəstək idi. Azərbaycan Ordusunun, rəşadətli əsgər və zabitlərimizin qələbəsi qəlbimizi coşdurdu. Aprel döyüşləri təkrar olunarsa, ordumuz yenidən öz məğlubedilməzliyini sübut edəcəkdir."

Müəllimlərdən Xurşudbanu Ocaqverdiyeva söz alıb məktəbə adı verilmiş qəhrəman qardaşıyla bağlı xatirələrini bölüşür, onun Vətən uğrunda şəhidliyinin bir ailəyə, bir nəslə başucalığı, şərəf olduğunu bildirir. "Dövlətimizə, xalqımıza minnətdaram ki, şəhidlərə, onların ailə üzvlərinə böyük diqqət yetirir. Sərxan kiçik qardaşımız idi, keçmiş Sovet ordusunda iki illik əsgərliyini başa vurub Vətənə qayıtmışdı. Qarabağ müharibəsi başlananda isə təhsil aldığı texnikumu cəbhə bölgəsinə dəyişdi. Ordumuzun ilk könüllü əsgərlərindən biriydi, qəhrəmancasına şəhid oldu. Bu gün də bir şəhid bacısı olaraq qürurluyam ki, Sərxan müqəddəs amal uğrunda borcunu yerinə yetirdi, Vətənin dar günündə kənarda qalmadı. Məktəbimizin rəhbərliyindən dönə-dönə razıyam, çünki qardaşımın xatirəsi daim kollektivdə əziz tutulur".




Sonra direktor bir şagirdi göstərib deyir:

- Milli Qəhrəmanımızın qardaşı oğludur, adı Sərxandır, şəhid əmisinin adını yaşadır.

7-ci sinifdə oxuyan Sərxan Ocaqverdiyevi sorğu-suala tutanda əmisindən qürurla danışdı, "əmim torpaqlarımız, Vətənimiz uğrunda şəhid olub", - dedi.

- Sərxan, qəhrəman olmaq üçün nə etmək lazımdı?
- Vətəni anamız bilib onun təəssübünü çəkməli, böyük amallar üçün yaşamalıyıq.
- Bəs buna görə səndən nələr tələb olunur?
- İlk növbədə yaxşı oxumaq, intizamlı olmaq, idman dərslərində fiziki hazırlığımı artırmaq. Məllimlərimiz deyir ki, bu şərtlərə əməl etsən, əminin adına layiq oğul olacaqsan.

Nadir Vəliyev isə 10-cu sinif şagirdidir. Nadir də aprel döyüşlərindəki qələbəmizdən həvəslə danışır, ordumuzun qüdrəti ilə fəxr etdiyini deyir. Deyir ki, qardaşı Qadir də zabit olacaq, hazırda C.Naxçıvanski adına Hərbi Liseyin ikinci kursunda oxuyur. "Qardaşını hərbi formada görəndə hansı hisslər keçirirsən?" sualına Nadirin cavabı belədir: "Həmişə onun hərbi geyiminə həsədlə baxıram, düşünürəm ki, Murad Mirzəyev kimi qəhrəman zabitlərimiz də ən əvvəl bu formadan geyiniblər. Murad Milli Qəhrəmandır, internet saytlarında, qəzetlərdə onun haqqında çox oxumuşam. Əsgərlərinə böyük hörməti olub. Çox istərdim ki, qardaşım da onun kimi rəşadətli komandir olsun."

9-cu sinifdə oxuyan Yetər Məmmədovanın da söhbətindən qürurlu olduğunu hiss edirəm, çünki onun da atası Qarabağ savaşının iştirakçısıdır. "Aprel döyüşləri başlananda atam sakit dayana bilmirdi, deyirdi ki, Vətən dara düşəndə gərək hər kəs özünü səngərdə hiss etsin."

Söhbətimizə qoşulan müxtəlif fənn müəllimləri də müasir dövrdə Azərbaycanda dövlətçilik, vətənpərvərlik siyasətinin uğurla həyata keçirilməsindən, şəhidliyə göstərilən hörmət və ehtiramdan danışırlar. Hər kəsin gəldiyi qənaət budur ki, Vətən, dövlətçilik, şəhidlik cəmiyyətə yetərincə təbliğ olunanda, gənc nəsil də mübarizləşir, müqəddəs dəyərlər ruhunda formalaşır. Və müəllimlərə görə, gənclərə bəşəri hisslər aşılamaq, onlarda Vətən, yurd sevgisini artırmaq üçün hər kəs məsuliyyətini dərindən dərk etməlidir. Əgər Mübarizə, Samidə, Çingizə bir vaxtlar dərs demiş insanlar bu gün qəhrəman məzunlarına görə qürurlanırsa, onda müəllim peşəsi ən müqəddəs, həsəd duyulası peşələrdəndir.

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**Coşqun CƏFƏROVUNDUR**

*Nəsillərə nümunə*

# Ömür yolu örnək olanlar

*Böyük qələbənin qazanılmasında misilsiz xidmətlər göstərmiş, zəngin döyüş yolu keçmiş insanların həyatı gənclərə örnəkdir. Bu gün də onlar Vətənimizin, xalqımızın nurlu gələcəyi naminə çalışmaqdan yorulmurlar. Goranboy rayonu Tatarlı kənd sakini, el ağsaqqalı, ömrünü, həyatını gənc nəslin təlim-tərbiyəsinə həsr etmiş qocaman müharibə veteranı Süleyman Muxtar oğlu Məmmədov da belələrindəndir.*

Süleyman müəllim təkcə öz evinin, nəslinin yox, el-obanın ağsaqqalıdır. Silahdaşları kimi Süleyman müəllimin də həyat salnaməsi zəngindir. O, 1918-ci ildə Goranboy rayon Tatarlı kəndində anadan olub, ibtidai təhsilini də bu kənd məktəbində alıb. Orta təhsilini başa vurduqdan sonra Gəncə Dövlət Universitetinə qəbul olunub. Həmişə nümunəvi təhsili ilə seçilən Süleyman Məmmədov ali məktəbi yüksək qiymətlərlə başa vurduqdan sonra müəllim işləməyə başlayıb. Lakin çox keçməmiş ona çağırış vərəqəsi gəlir. 1942-ci ildə kənd sakinləri Süleyman müəllimi Böyük Vətən müharibəsinə yola salırlar.

Bir müddət təlim keçdikdən sonra azərbaycanlılardan ibarət olan 416-cı milli atıcı diviziyada xidmətə başlayır. Düşmənə qarşı aparılan döyüş əməliyyatlarında fəal iştirak edir.

Oxucularımıza xatırladım ki, 416-cı milli atıcı diviziyanın tərkibi azərbaycanlılardan ibarət idi. 1942-ci ilin payızında diviziya Şimali Qafqazda 44-cü ordu, az sonra 58-ci ordu tərkibində Mozdok istiqamətində döyüşlərə başladı və Taqanroq şəhərinin azad edilməsində fəal iştirakına görə, ona "Taqanroq diviziyası" adı verildi. Diviziya Qafqazdan Berlinə kimi 2500 km müzəffər döyüş yolu keçərək, düşmənin 23 minə yaxın əsgər və zabitini məhv edib, 5474 nəfər əsir götürüb, çoxlu döyüş texnikasını qənimət kimi ələ keçirib. Diviziyanın 14396 nəfər əsgər və zabiti SSRİ-nin orden və medalları ilə təltif edilmişdi. Onların bir çoxuna xarici ölkələrin orden və medalları da verilmişdi. Diviziyada xidmət etmiş zabit və əsgərlərdən 5 nəfəri Sovet İttifaqı Qəhrəmanıdır. Diviziyanın özü Qırmızı Bayraq və 2-ci dərəcəli Suvorov ordeni ilə təltif edilmişdi, onun qələbələri şərəfinə Taqanroq şəhərinin yaxınlığındakı Sanbek yüksəkliyində xatirə kompleksi yaradılıb. Taqanroqda, Kiyevdə, Nikolayevdə, Odessa şəhərlərində və Moskvada diviziyanın döyüş yolunu əks etdirən şöhrət muzeyləri təşkil edilib.

Veteranla söhbətdən öyrənirəm ki, Şimali Qafqazdan başlanan döyüş yolu Berlinədək davam edib. Bir çox ölkələrin, xalqların faşizm əsarətindən xilas olunmasında



onun da xidməti olub. Böyük qələbə naminə əlindən gələni əsirgəməyib. O illərə qayıdan müsahibim deyir:

- Hitler faşizmi o vaxt təkcə Vətən saydığımız ölkə üçün yox, bütün dünya üçün böyük təhlükəyə çevrilmişdi. Bütün ölkələri fəth etmək, əsarət altında saxlamaq istəyən faşizm dünyaya meydan oxuyurdu. O illər çox ağır dövr idi. İkinci Dünya müharibəsindən qalib çıxmağımızın ən böyük səbəbi xalqların birliyi və möhkəm intizam, insanlarda olan vətənpərvərlik idi.

Müharibə başa çatdıqdan sonra Vətəninə qayıdıb və pedaqoji fəaliyyətini davam etdirib. Uzun illər Gəncə Dövlət Universitetində çalışıb, tələbələrinə təkcə elmi biliklər yox, həm də həyatda yaşamağın sirlərini aşılayıb.

Veteran keçən ilin aprelində düşmənin törətdiyi təxribata cavab olaraq Azərbaycan əsgərinin rəşadətli döyüşlərindən də danışdı. Ordumuzun hazırlığı, əsgərlərimizin mərdliyi sayəsində qazanılan qələbədən son dərəcə məmnunluğu hər kəlməsində hiss olunurdu.

- Biz heç vaxt tariximizi unutmamalıyıq, - deyir. - Ermənilərin iblis xisləti, xainliyi, nankorluğu həmişə göz qabağında olub. Fürsət düşən kimi namərd əməlləri üzə çıxır, havadarları hesabına xalqımıza qarşı soyqırımı siyasəti aparırlar. Ötən ilin aprelində isə onlar gördülər ki, Azərbaycan Ordusu güclü, intizamlı bir ordudur. Döyüşçülərimiz düşmənin layiqli cavabını verdilər. Hətta bir çox əhəmiyyətli yüksəklikləri də düşmən əsarətindən təmizləyib, xalqımıza qələbə sevincini yaşatdılar. Mən bunu eşidəndə çox qürurlandım. Böyük Vətən müharibəsində cəbhələrdə azərbaycanlıların göstərdiyi şücaətləri, qəhrəmanlıqları düşündüm. Həmin qəhrəmanlıq yolu bu gün də Qarabağ cəbhəsində davam edir. İnanıram ki, işğal altında olan torpaqlarımız düşməndən azad olunacaq, Vətənimizin hər yerində əmin-amanlıq yaranacaq.

Süleyman müəllim həm də xoşbəxt ailə başçısıdır. Vətənə, xalqa layiq 6 övlad böyüdüb, tərbiyə edib. Nəvə-nəticələrinin bir çoxu başqa yerlərdə yaşasa da, düşmənlə sərhəddə yerləşən doğma kəndlərini heç vaxt unutmurlar. Ümumiyyətlə, Azərbaycanın bu bölgəsində də yurda, torpağa bağlılıq güclüdür, düşmənlə üzbəüz kəndin sakinləri ən çətin günlərində belə evlərini tərk etməyiblər.

- İndi Tatarlı kəndi Vətənimizin keşiyində sayıq dayanan əsgərlərimiz tərəfindən qorunur. Azərbaycan Ordusu günü-gündən möhkəmlənir. Buna görə də Vətən torpaqları işğal altında qala bilməz. İnanıram ki, Azərbaycan əsgəri öz şərəfli vəzifəsini sonadək layiqincə yerinə yetirəcəkdir. Ən böyük qələbə günü onda olacaq, - deyən nurani ağsaqqal da tezliklə qələbə sevincini yaşamaq arzusundadır.

Söhbətimizdə iştirak edən kəndin təəssübkeş ziyalısı Fuad müəllim deyir ki, Azərbaycanın hər yerində olduğu kimi, bizim rayonda da veteranlar diqqət və qayğı ilə əhatə olunublar. " Rəhbəri olduğum Tatarlı kənd orta məktəbinin kollektivi də tez-tez Süleyman müəllimə baş çəkir, onun mənalı söhbətlərini dinləməkdən yorulmur. Belə görüşlər şagirdlərimizə xoş hisslər aşılayır."

Ataların bir məsəli var: "Yüz yaşa, yüz öyrən". Yəni, insan nə qədər yaşayırsa, bir o qədər də öyrənməlidir. İndi gənc nəsil Süleyman müəllim kimi təcrübəli insanlardan nümunə götürməli, belələrinin ömür yolunu özlərinə örnək bilməlidir.

**Baş leytenant**
**Məhəmməd NƏSİRLİ,**
**"Azərbaycan Ordusu"**



## Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçirilib

*ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, mayın 4-də Ağdam rayonu ərazisində, Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində, növbəti monitorinq keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, monitorinqi Azərbaycan tərəfindən şəxsi nümayəndə səfir Anjey Kaspşik, onun səhra köməkçiləri Gennadi Petrika və Martin Şuster keçiriblər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi şəxsi nümayəndənin səhra köməkçiləri Mixail Olaru və Saymon Tiller keçiriblər.

# Azərbaycan faşizm üzərində Qələbəyə layiqli töhfə verib

*Mayın 5-də Azərbaycan Hərb Tarixi Muzeyində faşizm üzərində Qələbənin 72-ci ildönümü ilə əlaqədar keçirilən tədbirdə Müdafiə Nazirliyinin idarə və müəssisələrinin, hərbi hissələrin, xüsusi təyinatlı hərbi məktəblərin, respublika veteran ictimaiyyətinin nümayəndələri və Böyük Vətən müharibəsi veteranları iştirak edirdilər.*




Öncə ümummilli lider Heydər Əliyevin, Böyük Vətən müharibəsi qurbanlarının və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Tədbiri açıq elan edən muzeyin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə bildirdi ki, İkinci Dünya müharibəsindən 72 il keçməsinə baxmayaraq, faşizmin bəşəriyyətə vurduğu yaralar hələ də yaddaşlardan silinməyib. "1941-ci il iyunun 22-də Hitler Almaniyası gözlənilmədən 190 diviziya, çoxsaylı hərbi texnika və təyyarələrlə SSRİ-yə hücuma keçdi. SSRİ-də yaşayan bütün millətlərin nümayəndələri Vətəni qorumaq üçün müdafiəyə qalxdılar. Azərbaycandan da cəbhəyə 600 mindən çox insan səfərbər olunmuşdu ki, onlardan 300 min nəfəri döyüşlərdə qəhrəmancasına həlak olub... Ulu öndər Heydər Əliyevin bir kəlamını xatırlayıram: "Azərbaycan xalqı İkinci Dünya müharibəsində həm döyüş meydanlarında, həm də arxa cəbhədə əsl şücaət və əzmkarlıq nümunələri göstərmişdir. Müharibə başlanandan keçən qısa müddət ərzində Azərbaycan Respublikası ərazisində 87 qırıcı batalyon, 1124 özünümüdafiə dəstəsi təşkil edilmişdir. 1941-1945-ci illərdə respublikanın 600 mindən çox oğlan və qızları cəbhəyə getmişdir." Azərbaycandan Böyük Vətən müharibəsində iştirak edən minlərlə döyüşçü faşistlərlə vuruşlarda rəşadət və qəhrəmanlıq nümunələri göstərdiklərinə görə SSRİ-nin yüksək adları, rütbələri, orden və medalları ilə təltif ediliblər."

Muzey rəisi çıxışında qeyd etdi ki, faşist Almaniyası SSRİ-yə qarşı müharibə planında Qafqazın ələ keçirilməsi, Bakı neftinə sahiblənmək də əsas yer tuturdu. "Odur ki, düşmən əsas zərbəsini Qafqaza yönəltmişdi. O zaman SSRİ neftinin 70-75 faizini Bakı verirdi. Motorlu hərbi texnika, demək olar ki, Bakı yanacağı ilə işləyirdi. 1941-1945-ci illərdə Bakıdan cəbhəyə 75 milyon ton neft, 22 milyon ton benzin göndərilmişdi."

Bakı Dövlət Universitetinin professoru, tarix elmləri doktoru Nuru Məmmədov isə çıxışında İkinci Dünya müharibəsində Azərbaycan diviziyalarının xidmətlərindən danışdı. "Müharibə illərində Azərbaycandan cəbhəyə yola salınanların 40 mini könüllülər idi. Ön cəbhədə azərbaycanlılardan ibarət 77-ci, 223-cü, 227-ci, 271-ci, 402-ci, 416-cı diviziyalar döyüşürdü.

Həmyerlilərimiz Qafqazdan Berlinə kimi böyük döyüş yolu keçərək, Polşa və Çexoslovakiyanın faşistlərdən azad edilməsi uğrunda əməliyyatlarda misilsiz qəhrəmanlıq göstərmişdilər..."

Tədbirdə iştirak edən Böyük Vətən müharibəsinin veteranları Bəkir Məmmədov, Məşi Elyasov, İsmayıl Fərəcov və Ağababa İsgəndərov odlu-alovlu döyüş yollarından maraqlı xatirələrini bölüşdülər. O ağır günlərdə xalqımızın istər ön cəbhə, istərsə də arxa cəbhədə göstərdiyi əzmkarlıq və qəhrəmanlıqlardan söz açdılar. Onlara göstərilən diqqət və qayğıya görə Prezident, Ali Baş Komandan İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlıqlarını bildirdilər. Öz döyüş təcrübələrini hər zaman əsgər və zabitlərlə bölüşməyə hazır olduqlarını bildirən veteranlar tədbir iştirakçıları tərəfindən ayaqüstə alqışlandı.

Sonda Böyük Vətən müharibəsinə həsr olunmuş qısametrajlı film nümayiş olundu.

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# “Mən də tankçı olacam!”

(esse)



Sərin yaz səhəridi. Küçələrdə gediş-gəliş artmaqdadı - işə gedən, işdən gələn, dərsə tələsən, ... Ağır yerişlə Şəhidlər xiyabanına gedənlərin sırası sıxlaşmaqdadı. İki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun büstünün qarşısında da xeyli adam var.

Yaşı 80-i aşan baba əl əsasına mətərislənib. İllərdi onu bura vəfa borcu gətirir.

Bayaqdan bəri baxışları Həzi Aslanovun büstündən üzülmür. Nələri xatırlayır? - 72 ilin o üzündə qalan Böyük Vətən müharibəsi illərini, komandiri, Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun amiranə səsini, tankçıları döyüşə ruhlandıran kəlmələrini, döyüşdən sonra yanağını bürüyən təbəssümü, arada azərbaycanlı tankçılarla əzizləri kimi kəlmələşdiyini, ...

Kövrəlir. 45-ci ilin 6 may səhərini Həzi Aslanovsuz açmışdılar. 9 mayın ovqatını Həzi Aslanovsuz yaşamışdılar. Hamısının qəlbi qana dönmüşdü. Belə sərkərdənin, belə insanın həlak olması hamısını varından yox eləmişdi...

O ağrılı gündən 72 il keçir...

72 ildi 9 may səhərini o da bir ürək tutumunca sevinclə açır - Qələbə qazanıldı, o da bir ürək tutumunca qəhərlə açır - Həzi Aslanov o günü görə bilmədi...

Babadan beş-altı addım aralıda bir kişi dayanıb. Onun da əlində əsa var. Babanın baxışları Həzi Aslanovun büstündən, kişinin baxışları babanın baxışlarından üzülmür. Baba Həzili ayların, illərin xatirələrinə qısılıb, kişi o xatirələrdən 49 yaş cavan xatirələrin cazibəsindədi:

Sırxavənd uğrunda gərgin döyüşlər gedirdi. Düşmənin hücumunun qarşısını almaq, mövqeni saxlamaq üçün döyüşürlər.

Döyüşçülərimizin mühasirəyə düşmək təhlükəsi yarananda zamanı dayandırmaq, torpaqlarımıza tamahlananların arasında çaşqınlıq yaratmaq üçün tankı qarşı tərəfə istiqamətləndirdi. Döyüşün səmti dəyişər-dəyişməz həlak olmuş komandirin vəzifələrini icra edən leytenantın əmriylə nisbətən uyarlı mövqeyə çəkilə bildilər - mühasirə təhlükəsi sovuşdu...

Tanka mərmi dəydi...

Tank alışdı. Ekipaj tankı tərk edə bildi. On beş-on altı addım uzaqlaşmamışdılar ki, qənşərlərinə mərmilər düşdü. Onları döyüşün içindən çıxarda bildilər...

Sağ ayağını dizdən aşağı kəsdilər...

İllərdi 9 mayda böyük sərkərdəni ziyarətə 7 ildi nəvəsiylə və nəticəsiylə gəlir. Əlindən yapışan 8-9 yaşlı uşaq gah atasına baxır, gah atasının babasına. Atasından da nəsə soruşmaq istəyir, atasının babasından da. Hələ soruşmur. Bir azdan soruşacaq...

Baxır...

Baxır və "Böyüyəndə mən də tankçı olacam, baba!" - deyir. Səs atanı da özünə çəkir, atanın babasını da. İkisi də uşağı bağrına basmaq istəyir...

Həzin-həzin əsən yel ağacların budaqlarından, yarpaqlarından sürüşür...

Babanın da gözləri dolub, atanın da. Sevinirlərmi, kövrəlirlərmi - bilmək mümkün deyil.

Baba Həmiddi, nəvə Qafurdu, nəticə Həzidi - baba nəticəsinə komandirinin adını verib...

...Sərin-sərin meh əsir. Baba da tələsmir, nəvə də. Balaca Həzi tələsir - arzuladığı aylara can atır, zamanı qabaqlamaq keçir könlündən...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

# İllərin sınağından çıxmış veteran



*Bir neçə il bundan əvvəl baş redaktor məni otağına çağırdı və otağında əyləşən yaşlı bir hərbçi ilə tanış etdi. Əlində yazılarla dolu qovluq da var idi. Məlum oldu ku, bu materiallar Böyük Vətən müharibəsi iştirakçıları haqqındadır. Yazılar rus dilində idi. Onu Azərbaycan dilinə tərcümə elətdirmək istəyirdi. Özünü təqdim etdi - 1-ci dərəcəli kapitan Aleksandr Aleksandroviç Qritçenko. O, yazılarla dolu qovluğu açıb təkrar olaraq mənə göstərdi və dedi ki, bunlar mənim üçün əmanətdir. "Bunlar Vətən uğrunda döyüşlərdə igidliklə vuruşan, itkin düşən və qəhrəmanlıqla həlak olan azərbaycanlılar haqqında toplanan materiallardır."*

Aleksandr Qritçenko ordudan tərxis olunduqdan sonra ömrünü müharibə iştirakçılarının axtarışına sərf edib. Günlərini arxivlərdə keçirib. Faşizmə qarşı döyüşlərdə iştirak edən, itkin düşən, həlak olan soydaşlarımız haqqında geniş məlumat almaq üçün onların yaşadıqları ünvanlara gedərək ailələri ilə görüşüb. Döyüşçülərin həyat və döyüş yollarını müxtəlif qəzetlərdə işıqlandırıb. Azərbaycanı və azərbaycanlıları sevən bir insana saygılar göstərdim.

Aleksandr Qritçenko əslən Dnepropetrovski şəhərindəndir. Müharibə başlananda Hərbi Dəniz Donanmasında xidmətə çağırılıb. Böyük Vətən müharibəsinin başlanğıcından sonuna qədər döyüş yolu keçib. Qara dəniz, Azov və Dunay hərbi dəniz donanmalarında dəniz piyadaları sırasında faşistlərə qarşı igidliklə vuruşub. Rumıniyanın, Bolqarıstanın, Macarıstanın, Çexoslovakiyanın və başqa ölkələrin faşistlərdən azad edilməsində iştirak edib. Cəbhə qəzetlərində məqalələri dərc olunub.

A.Qritçenko Azərbaycana gəldiyi vaxtdan buranı özünə doğma Vətən seçir.

Qritçenko onlarla kitabların müəllifidir. O, şairdir, yazıçı-publisistdir, jurnalistdir. Kitablarının əksəriyyəti də dəhşətli müharibə illərində qəhrəmanlıq göstərən döyüşçülər haqqındadı. "Yaddaşlarda əbədi qalacaq", "Qələbənin marşalı Jukov", "Odlu illərin qəhrəmanları", "Azərbaycan qəhrəmanları"... və s. kitablarda Azərbaycanın müxtəlif bölgələrindən olan azərbaycanlı, rus, ləzgi, tat, avar, gürcü, yəhudi və s. millətin nümayəndələri haqqında müxtəlif məlumatlar var.

Onu neçə illərdir ki, kursantlar, məktəblilər arasında görürük. O, müharibənin dəhşətlərindən, qəhrəmanların igidliyindən danışır.

A.Qritçenkonun adı Moskvada Beynəlxalq Mərkəzin nəşri olan "XX əsrin əsgərləri" tarixi kitabına düşüb.

İlin əvvəlində Prezident İlham Əliyevin sərəncamı ilə Aleksandr Qritçenko Azərbaycan Respublikasının ictimai həyatında səmərəli fəaliyyətinə və gənclərin vətənpərvərlik tərbiyəsindəki xidmətlərinə görə “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif edilib.

İctimai fəaliyyətinə görə də dövlətimizin müxtəlif fəxri adlarına, mükafatlarına layiq görülüb.

**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Odessanın şəhər bazarı ətrafında İkinci Dünya müharibəsindən qalan 32 mərmi tapılıb



Ukraynanın Odessa şəhərində bazar ətrafında İkinci Dünya müharibəsindən qalan mərmilər tapılıb.

Odessanın "Anjelika" bazarı yaxınlığında tikinti işləri aparılarkən 32 artilleriya mərmisi, 78 patron aşkarlanıb. Aşkarlanan silah-sursatın hamısının İkinci Dünya müharibəsindən qaldığı müəyyənləşdirilib.

Mərmilər xüsusi ayrılmış ərazilərdə zərərsizləşdiriləcək.

## Pakistan-Hindistan sərhədində atışma nəticəsində üç nəfər həlak olub



Pakistan-Hindistan sərhədində yerləşən Bəlucistan əyalətinin Çaman sərhəd-keçid məntəqəsində əhalinin siyahıyaalması keçirilərkən açılan atəş nəticəsində Pakistan tərəfdən 3 nəfər həlak olub, 18 nəfər yaralanıb. Atışmadan sonra Çaman sərhəd-keçid məntəqəsi bağlanıb.

## ABŞ bir həftədə qitələrarası ballistik raketin iki sınağını keçirib



ABŞ hərbçiləri bir həftə ərzində Minuteman III qitələrarası ballistik raketinin iki test sınağını keçiriblər.

Fox News telekanalının ABŞ Hərbi Hava Qüvvələrinin bəyanatına istinadən yaydığı məlumata görə, raket bu gün yerli vaxtla saat 3:00-da (Bakı vaxtı ilə 14:00) Kaliforniya ştatındakı Vandenberq bazasından buraxılıb. O, 4 min mildən çox məsafə qət edərək Marşall adaları yaxınlığında Sakit okean sularına düşüb. Bu sınaqların illik plan əsasında keçirilmiş və Koreya yarımadasında vəziyyətlə bağlı olmadığı bildirilir.

Raketin bundan əvvəlki sınağı aprelin 26-da keçirilmişdi. Miunuteman III ballistik raketi 12 min kilometr radiusda hədəfləri vurmağa qadirdir. ABŞ ordusunda 450 belə raket var və onlar silahlanmada azı 2020-ci ilədək qalacaq.

## Bolqarıstanda, Rumıniyada və Yunanıstanda NATO-nun hərbi təlimləri keçiriləcək



Rumıniya Müdafiə Nazirliyinin məlumatına əsasən, NATO-nun "Noble Jump - 2017" adlı genişmiqyaslı hərbi təlimləri Bolqarıstan, Rumıniya və Yunanıstanda cari ilin iyun ayında keçiriləcək.

Təlimlərdə NATO-ya üzv olan 11 ölkədən - Albaniya, Bolqarıstan, Böyük Britaniya, Yunanıstan, İspaniya, Latviya, Niderland, Norveç, Polşa, Rumıniya və ABŞ-dan hərbiçilər iştirak edəcək.

## Mosulda raket zərbələri 81 mülki şəxsin həyatına son qoyub



İraqın Mosul şəhərində mülki şəxslərin hərbi əməliyyatların getdiyi qərb rayonundan qaçaraq sığındıqları məktəb binasına raket zərbələrinin endirilməsi nəticəsində 81 nəfər həlak olub.

Yerli polis idarəsindən alınan məlumatda İŞİD terror təşkilatının nəzarətindəki ərazidə yerləşən Əl-Vəla məktəbini hədəf alan raket hücumları nəticəsində ölənlərdən 34-nün kişi, 29-nun qadın, 18-nin isə uşaq olduğu bildirilir.

Lakin məktəbə raket zərbələrinin hansı qüvvələr tərəfindən endirildiyi açıqlanmayıb.

**AZƏRTAC-ın**
**materialları əsasında**

# Qəhrəmanların xatirəsinə həsr edilmiş turnirlər



*Bu günlərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə Azərbaycanın Milli Qəhrəmanı Məmmədov Eldar Harun oğlunun xatirəsinə həsr olunmuş bölüklər arasında yüngül atletika yarışı keçirildi. Birincilik başlamazdan əvvəl həm ümummilli liderimiz Heydər Əliyevin, həm də torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərin ruhu bir dəqiqəlik sükutla yad olundu. Tədbir iştirakçıları Azərbaycan Respublikasının Dövlət himnini oxudular. Sonra şəhid zabit haqqında mərasim iştirakçılarına məlumat verildi.*

Bugünkü yarış bir vaxtlar hərbi təhsil ocağının kursantı olmuş Azərbaycanın Milli Qəhrəmanı Eldar Məmmədovun xatirəsinə həsr olunub. O hələ kiçik yaşlarından hərbçi olmaq arzusu ilə yaşayırdı. Bu istəyini reallaşdırmaq üçün 1982-ci ildə indiki C.Naxçıvanski adına Hərbi Liseyə daxil olmuşdu. Sonra hərbi təhsilini davam etdirmək üçün 1985-ci ildə Riqadakı Qırmızı bayraqlı Ali Hərbi-Siyasi Məktəbdə təhsilini davam etdirib.



Erməni işğalçıları Azərbaycanın ərazilərinə hücum edəndə gənc leytenant E.Məmmədov raport yazaraq Vətənə qayıdır. Ağdərə istiqamətində gedən döyüşlərə yollanır. 1993-cü il fevralın 24-də Kasapet kəndi yaxınlığındakı yüksəkliyin müdafiəsində cəsur döyüşçü düşmənə qarşı qanlı döyüşlərdə iştirak edir. Bu qeyri-bərabər döyüşdə əsl igidlik nümunəsi göstərərək Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canından keçir.

Gənc zabitin göstərdiyi igidlik layiqincə qiymətləndirildi. Azərbaycan Respublikası Prezidentinin 11 dekabr 1994-cü il tarixli fərmanı ilə baş leytenant Məmmədov Eldar Harun oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verildi. Məzarı ölkəmizin paytaxtındakı Şəhidlər xiyabanındadır.

Birincilikdə 9 komanda iştirak edirdi. Qaydalara əsasən, idmançılar 4 mərhələdən - 100 və 2 min metrə qaçış, uzununa və hündürlüyə tullanma mərhələlərindən keçməli idilər. İştirakçılar komandalarını irəli çıxarmaq üçün yarışda fəal iştirak edirdilər. Bura əsl mübarizə meydanını xatırladırdı. İdmançılar daha cəld və sürətlə hərəkət edərək qələbəyə can atırdılar. Kursantlar yaxşı bilirdilər ki, qalibləri sonda mükafatlar gözləyir...

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına**
**Hərbi Lisey**




*Sumqayıt Olimpiya İdman Kompleksində Azərbaycanın Milli Qəhrəmanı, tankçı Albert Aqarunovun xatirəsinə həsr olunmuş xatirə turniri keçirilib. Turnirdə respublikanın müxtəlif bölgəsindən 300-dən çox 5-17 yaşlı uşaq, yeniyetmə və gənc idmançı iştirak edib.*

Turnirin təntənəli açılış mərasimində A.Aqarunov və Azərbaycanın ərazi bütövlüyü uğrunda digər şəhidlərimizin xatirəsi yad edilib. AMKF prezidenti Yaşar Bəşirov, Azərbaycan Kikboks Federasiyasının prezidenti, millət vəkili Adil Əliyev, millət vəkili Yevda Abramov, Azərbaycan Dağ Yəhudiləri İcmasının sədri Milix Yevdayev, Azərbaycanın ilk tank taborunun komandiri, ehtiyatda olan zabit Hacı Əzimov, A.Aqarunovun döyüş yoldaşı Vitaliy Hüseynov çıxış edərək gənc nəslin vətənpərvər ruhda böyüməsi üçün belə turnirlərin əhəmiyyətindən, Albert Aqarunovun şərəfli döyüş yolundan danışıblar.

Natiqlər qeyd ediblər ki, dövlətimiz Vətən uğrunda şəhid olan igid döyüşçülərimizin xatirəsini hər zaman əziz tutur. Yəhudi icmasının rəsmiləri Azərbaycan torpaqları uğrunda canlarını fəda etmiş A.Aqarunovun timsalında bir daha ölkədə yüksək tolerantlıq nümunəsi gördüklərini bildiriblər.

Xatirə turniri maraqlı idman mübarizəsi şəraitində keçib. Yarışın qaliblərinə medal və diplomlar təqdim edilib.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

## Redaksiyamızın poçtundan

# Əsgərlərimizə güvənirik!

Qarabağda, Ermənistanla sərhəd rayonlarda vəziyyət gərginləşəndə yüzlərlə vətənsevər Vətəni müdafiə etməyə yollandı. Sıralarında müəllim də vardı, fəhlə də, kişilər də vardı, qadınlar da, qızlar da vardı, yeniyetmə oğlanlar da. Salman müəllim kimya elmləri doktoruydu. Gədəbəyin müdafiəsinə getmişdi. Əvvəl əsgər kimi, sonra zabit kimi döyüşmüşdü. 1993-cü ildə jurnalistin sorğusuna cavab olaraq demişdi: "Elmdə az-çox nəsə eləmişəm. Vətəndaşlıq borcumu yerinə yetirmək üçün döyüşlərdəyəm..."

Zemfira Məhərrəmlinin "Döyüşə qızlar gedir" kitabından oxuduqlarımız təsdiqləyir ki, o illərdə gənc qızlar torpaqlarımızın müdafiəsində fədakarlıqlar göstərib. "Ağ atlı oğlan" bədii film olsa da, mövzu həyatdan götürülüb. Bunları nədən xatırladım? - bu günün yeniyetmələri, gəncləri üçün xatırladım. Bu günün yeniyetmələrinin, gənclərinin Vətən, torpaq haqqında düşüncələri üçün xatırladım.

Azərbaycanımızın kifayət qədər güclü ordusu var. Bu ordu nəyə qadir olduğunu ötən ilin aprelində təsdiqlədi. Dünya ictimaiyyəti gördü və inandı ki, Azərbaycan Ordusunun şəxsi heyəti kifayət qədər yüksək döyüş və mənəvi hazırlığa malikdir. Əgər sülh danışıqları baş tutmasa Azərbaycan Ordusu torpaqlarını işğaldan azad etməyə qadirdir.

Yeniyetmələr gəncləşəcək, gənclər hərbi xidmətə gedəcək. Bu xatırlatma onların hərbi xidmətə hazırlığında əhəmiyyətli olardı.

Bu günün gəncləri - biz Vətən, torpaq üçün döyüşmüş, döyüşən oğullardan bəhs edən əsərlər oxumaq istəyirik. Oxuyub öyrənmək, öyrənib bu amalla yaşamaq istəyirik. Əsgər torpağı qoruyur, bəs yazıçı, şair? Aprel döyüşlərindən məqalələr, şeirlər yazılıb. Belə möhtəşəm bir zəfər üçün bunlar azdır. O döyüşlərdən iri həcmli əsərlər yazılmalıdır. Həm tarixi, həm də tarixi-bədii. İstərdim ki, şair və yazıçılar əsərləriylə əsgərlərimizə qardaş olsunlar. Hər əsər yazıçı ilə, şair ilə oxucunun könül söhbətidi. Oxucu bu könül söhbətini həm də düşüncələrinə hopdurmalıdı. Necə deyərlər, əsərləri əsgərləşsin. Özümü o əsgərlərin bacısı bildiyim kimi, o şairlərin də, o yazıçıların da bacısı bilim!..

**Hüsniyyə İDRİSOVA**

## Hərbi ənənələr, yeniliklər

# "Zərbə" gecə və gündüz düşməni izləmək, ona zərbə endirmək imkanına malikdir



*Müdafiə Sənayesi Nazirliyinə məxsus "Şərq" İstehsalat Birliyində hazırlanan "Zərbə" pilotsuz uçuş aparatları müasir kəşfiyyat element bazasına və taktiki məhvedici hücum sisteminə malikdir.*

Qurğuda xüsusi izləmə mini optik kamerası yerləşdirilib. Aparatın xüsusi elektron mühafizə sistemi var və elektron manea vasitələrinə qarşı dayanıqlıdır. Peyk əlaqəsi itən zaman aparat sərbəst döyüş tapşırığını yerinə yetirməyə qadirdir. Xüsusi test yoxlamalarından sonra pilotsuz uçuş aparatları Silahlı Qüvvələrin istifadəsinə verilir.

Ötən ilin sentyabrında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Zərbə" pilotsuz uçuş aparatının təqdimatında iştirak edərək, PUA-nın taktiki-texniki xüsusiyyətlərilə tanış olmuşdu. Dövlət başçısı həmçinin Müdafiə Sənayesi Nazirliyinin muzeyində saxlanmaq üçün hazırlanan pilotsuz uçuş aparatının qanadını imzalamışdı.

"Zərbə" PUA gecə və gündüz, istənilən hava şəraitində sərbəst şəkildə düşməni izləmək və ona zərbə endirmək imkanına malikdir. Həmçinin partladıcı gücə malik yeni aparat qəlpəli fuqaslı piyada əleyhinə, müxtəlif texnikaya və canlı qüvvəyə qarşı səmərəlidir.

Aparat əməliyyat baxımından xüsusi avadanlıqlarla təchiz edilmiş yüksək keçid qabiliyyətinə malik "K1-Zərbə" mobil xüsusi zirehli maşına quraşdırılıb və istənilən zaman düşmənə sarsıdıcı zərbə endirə bilər.

2016-cı ilin aprel hadisələri zamanı müəssisə fasiləsiz iş rejiminə keçib və müxtəlif tipli PUA-lar qısa müddətdə hazırlanaraq döyüş zonasına göndərilib.

Müəssisədə təşkil edilən kursları müvəffəqiyyətlə bitirən Müdafiə Nazirliyinin PUA üzrə hərbi qulluqçularına bu yaxınlarda sertifikatlar verilib. Onlar PUA-ları idarə etməklə düşmənin bütün hərəkətlərini günün istənilən vaxtında nəzarətdə saxlayaraq, verilən tapşırıqları yerinə yetirmək məharətinə yiyələniblər.

**"Azərbaycan Ordusu"**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Günay TAĞIYEVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 159
Nüsxə 4650